**Fazilə NƏBİYEVA**

AMK-nın “Milli musiqi alətlərinin
təkmilləşdirilməsi” elmi-tədqiqat
laboratoriyasının baş elmi işçisi
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
Ünvan: Bakı, Yasamal rayonu, Ə.Ələkbərov 7
E-mail: nebiyeva.fazile@mail.ru

# “YALLI” RƏQSLƏRİNİN NOT NƏŞRLƏRİNİN ETNOMUSİQİŞÜNASLIQ ƏHƏMİYYƏTİ

***Xülasə:*** *Hazırkı məqalə qədim tarixə malik, birlik və vəhdət mücəssəməsi olan, YUNESKO-nun təcili qorunma siyahısına daxil edilmiş Azərbaycan “yallı” rəqsləri barədədir. Araşdırmada Günəşə sitayişi təzahür etdirən belə rəqslərin insanların erkən dünyagörüşü forması ilə əlaqəli olması aşkar edilir. Fikirlər “Yallı” rəqsinin etimologiyasına dair mənbələrdə mövcud olan sitatlarla təsdiq olunur. Tədqiqatda müxtəlif illərdə ayrı-ayrı tədqiqatçılar tərəfindən toplanmış və nota salınmış yallı rəqslərinin not nəşrləri barədə məlumat verilir. Təqdim edilən cədvəllərdə yallıların adı, hissələrinin sayı, məqam tonallığı, metri, tempi və səssırasının diapazonu göstərilir.*

***Açar sözlər:*** *yallı, dairəvi ayinlər, günəşə sitayiş, notlaşdırma, not məcmuəsi*

Azərbaycan “yallı” rəqsləri dairəvi və yarım dairəvi formada ifa edilərək özündə ənənə ilə müasirliyin vəhdətini əks etdirir. Kütləvi şəkildə ifa olunan belə rəqslər hal-hazırda “Novruz” bayramının və toy mərasimlərinin ayrılmaz atributlarından biridir.

Mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri nəticəsində milli-mənəvi sərvətlərimizdən olan yallı rəqsləri 2018-ci ildə YUNESKO-nun təcili qorunma siyahısına daxil edilmişdir. Bu barədə YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin Mavrikidə keçirilən 13-cü sessiyasında qərar qəbul olunub. Komitə üzvləri “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri”ni YUNESKO-nun Təcili Qorunma Siyahısına salınmasını dəstəkləyiblər.

Özündə sinkretik xüsusiyyətləri cəmləşdirən “yallı”ların qədim tarixi köklərə malik olmasını qaya təsvirlərinin mövcudluğu sübut edir. Gəmiqayadakı və Qobustandakı piktoqramlardan göründüyü kimi, yallılar öz başlanğıcını dünyəvi dinlərin meydana gəlmədiyi tarixi mərhələdən götürmüşdür. “Günəşə” sitayişin qədim insanların dünyagörüşü forması ilə bağlı olduğu bizə məlumdur. Bu baxımdan, günəşi müqəddəs hesab edən insanların arxaik təfəkkür tərzinin izləri müasir dairəvi rəqslərdə – “yallı”larda müşahidə olunur. Ehtimal ki, nitqin inkişafı ilə əlaqədar olaraq tarixin erkən çağlarında günəşin və alovun şərəfinə keçirilən dairəvi mərasimlər get-gedə dəyişilmişdir. Apardığımız araşdırmalar zamanı “yallı”ların çoxəsrlik təkamül prosesi keçərək oyun və rəqs formasını aldığı qənaətinə gəlmişik.

B.Hüseynlinin "Azərbaycan xalq rəqs melodiyaları" adlı kitabında Naxçıvan MR-nın ərazisində bu rəqsin 100-ə qədər növünün ifa olunması barədə məlumat mövcuddur. "Yallı"ların Azərbaycanın digər bölgələrində – Masallıda, Lənkəranda, Şəkidə, Qazaxda da ifa edildiyi qeyd edilir [6, s.7]. Yallı gedərkən iştirakçıların sayı 10-15-dən 100 nəfərədək ola bilər. "Yallı" rəqsi zamanı kişi və qadınlardan ibarət dəstənin əvvəlində əlində yaylıq və yaxud çubuq tutan "yallıbaşı" dayanır. "Ayaqçı" adlanan axırdakı iştirakçı ilə sıra tamamlanır. Rəqs ağır tempdə başlayır, getdikcə sürətlənir, ifaçılar dövrə vuraraq yallı gedirlər.

Azərbaycan "yallı" rəqslərinin alov kultu ilə bağlı olduğu qeyd edilməlidir. Elmi mənbələrdə "yallı" sözünün kökü müxtəlif mənalarla əlaqələndirilir. Bu sözün etimologiyası haqqında maraqlı fikirlərə rast gəlmişik. İsrafil Bağırovun bildirdiyinə görə "yallı" əslində "Yan" (yanmaq, od, alov) sözündən yaranmışdır. Odun tapıldığı dövrdə odu qorumaq, ətrafında dairəvi hasar çəkib hifz eləmək məqsədindən yaranıb. Qədimdə oda baxanlar, odu qoruyanlar, dediyimiz kimi, mühafizə məqsədi ilə odun, ocağın, yanğının ətrafında düzülürdülər, get-gedə bu, elə bir mərhələyə çatırdı ki, mütəşəkkil oyun formasını alırdı" [1, s.13].

Dilçi-alim Mirəli Seyidlinin "yallı" sözünün etimoloji təhlili ilə bağlı şərhinin onun mahiyyətini tam açdığını zənn edirik. Alimin fikrincə, "Yallı" rəqsinin adı da "yal+od" – uca "uca ad"la – günəşlə sıx bağlıdır. Onda "Yallı" – "yal+lı", "alov+lu", "od+lu", "günəş+li" deməkdir. Ehtimal ki, qədim azərbaycanlılar odun, alovun şərəfinə ayində həmin rəqsin ilkin variantını ifa etmişlər. Elə buna görə də rəqs "alovlu", "odlu" adlanmışdır. Bu rəqs ola bilsin sözlə, mahnı ilə, lap ilkin variantda isə nidalarla müşayiət olunmuşdur" [12, s. 79-80].

Milli-mənəvi sərvətlərimizdən olan yallı rəqslərinin toplanması, nota salınması və tədqiqata cəlb olunması müasir Azərbaycan etnomusiqişünaslığının prioritet məsələlərindən biridir. Bu sahədə müxtəlif dövrlərdə əhəmiyyətli işlərin görüldüyünü qeyd etmək lazımdır. Bayram Hüseynlinin [6], Əhməd İsazadənin [7], Nəriman Məmmədovun [7], Məmməd Ələkbərovun, Əqidə Ələkbərovanın [3; 13; 14], Səyavuş Əlizadənin [4], Musa Mirzəyevin [11], Aynurə Quliyevanın [8], Günay Məmmədovanın [9], Əkrəm və Kənan Məmmədlilərin [10], Rauf Bəhmənlinin [2] not yazıları və araşdırmaları qiymətli elmi mənbələrdəndir. Azərbaycan yallı rəqslərinin öyrənilməsi musiqişünaslarla yanaşı, xoreoqrafların da tədqiqat obyektinə çevrilmişdir. Bu baxımdan, sənətşünas Kamal Həsənovun [5] işləri mühüm əhəmiyyət kəsb edir.

"Yallı"ların nota yazılaraq gələcək nəsillərə çatdırılması sahəsində 1930-cu illərdə Xalq Musiqi Kabinetinin atdığı bir çox əhəmiyyətli addımları vurğulamaq lazımdır. Kabinetin ekspedisiyalarında kütləvi xalq rəqslərinin toplanaraq notlaşdırıldığını, lakin əlyazma halında qaldığını təəssüflə bildirmək istərdik.

Nota salma işində M.Ələkbərovun xidmətləri qeyd olunmalıdır. O, ilk dəfə 1969-cu ildə Naxçıvan yallılarını nota yazaraq Azərbaycan Mədəniyyət Nazirliyi xalq yaradıcılığı evinə təqdim etmiş və bu mövzu əsasında "Şərur eskizləri" adlı üç hissəli süitasını bəstələmişdir.

Azərbaycan yallı rəqs melodiyalarının notlaşdırılması sahəsində görkəmli etnomusiqişünas B.Hüseynlinin dəyərli işlərini qeyd etmək lazımdır. O, Azərbaycan xalq rəqsləri haqqında dissertasiya yazan ilk alim kimi "yallı"ların toplanması, nota yazıl-

ması və nəşri sahəsində böyük xidmətlər göstərmişdir. Onun notlaşdırdığı bir çox rəqs nümunələri əsasən “Azərbaycan xalq rəqs melodiyaları” (1965) adlı birinci və ikinci dəftərdə (1966) toplanmışdır. Birinci dəftərə “Yallı”, ikinci dəftərə isə “Halay” rəqsləri daxildir. Yallı nümunələrinin B.Hüseynli Naxçıvan MR-nın Ordubad, Şərur və Şahbuz rayonlarından toplaması faktı heç də təsadüfi hal deyil. Çünki yallı rəqsləri və onların səciyyəvi ifası daha çox həmin rayonlarda geniş şəkildə yayılmış və yaşadılmışdır. Məcmuəyə daxil olan nümunələr həm melodik, forma, məqam quruluşu və folklor-rəqs ifaçılığı xüsusiyyətləri baxımdan, həm də musiqi tariximizin qədim dövrlərinin öyrənilməsi nöqteyi-nəzərindən ciddi elmi maraq doğurur. B.Hüseynlinin birinci dəftərə daxil etdiyi 25 yallının not yazısı iki zurna və nağaranın ifasından nota salınmışdır. O, “yallı”ların xoreoqrafik məzmununa görə iki cür olduğunu bildirmişdir. Alimin qeyd etdiyinə görə bunlardan birincisi xoreoqrafik quruluşu və ifa tərzi müəyyən süjeti tərənnüm edən yallılardır. Belə yallılar teatrlaşmış xalq oyunları olduğu üçün “oyun-yallı” adlanır. Rəqs yallısında isə qəhrəmanlıq motivləri, xalqın əhvali-ruhiyyəsi, gənclik, çeviklik təsviri və tərənnümü ifadə edilir [6, s.8].

B.Hüseynlinin apardığı təsnifata əsasən müşayiətinə görə yallı rəqslərimizi iki yerə – mahnı və musiqi müşayiəti ilə ifa olunan yallılara ayırmışdır [6, s.8]. **Bax: cədvəl № 1.**

***Cədvəl №1***

| **Yallının adı** | **Hissələrinin sayı** | **Məqamı** | **Metri** | **Tempi** | **Oyun və ya rəqs yallısı** | **Müşayiəti** | **Diapazonu** |
|---|---|---|---|---|---|---|---|
| 1. Dönə | 2 | D segah | 6/8 | *Moderato* | Rəqs yallısı | İnstrumental | $b^k$-$f^1$ |
| 2. Hağışda | - | - | - | - | - | İnstrumental | - |
| 3. - | - | - | - | - | - | - | - |
| 4. - | - | - | - | - | - | - | - |
| 5. Siyaqutu | 3 | C rast | 6/8 | *Andante* | Rəqs yallısı | - | - |
| 6. - | - | - | - | - | - | - | - |
| 7. Köçəri | 2 | G şur | 2/4; 6/8 | *Moderato; Allegro* | Oyun yallısı | İnstrumental | $f^1$-$c^1$ |
| 8. Çınq-çınq | 2 | Cis şur | 2/4; 6/8 | *Moderato; Allegro* | Rəqs yallısı | İnstrumental | $cis^2$-$fis^2$ |
| 9. Yerevanı | 2 | D segah | 6/8; 6/8 (3/4) | *Moderato; Allegro* | - | - | $b^k$-$as^1$ $b^k$-$g^1$ |
| 10. İkiayaq yallı | 2 | D çahargah – D segah – D çahargah | 6/8 (3/4); 6/8 (3/4) | *Moderato; Allegro* | - | - | $cis^1$-$g^1$ |
| 11. Üçayaq yallı (Noraşen variantı) | 2 | Cis şur | 2/4; 6/8 (3/4) | *Moderato; Allegro* | - | İnstrumental | $ais^1$-$e^2$ $h^1$-$fis^2$ |
| 12. Qaladan-qalaya | 2 | Cis şur | 2/4; 6/8 | *Andante; Moderato* | - | İnstrumental | $cis^2$-$h^2$ |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 13. Tənzərə | 2 | G şur | 2/4;<br>6/8 | *Adante;<br>Moderato* | Rəqs<br>yallısı | İnstrumental | $g^1$-$d^2$<br>$g^k$-$es^2$ |
| 14. Tənzərə<br>(Noraşen<br>variantı) | 2 | Cis şur | 2/4;<br>6/8<br>(3/4) | *Andante;<br>Moderato* | Rəqs<br>yallısı | İnstrumental | $h^1$-$a^2$<br>$cis^2$-$h^2$ |
| 15. Gopu | 2 | Cis şur | 6/8;<br>6/8 | *Andante;<br>Moderato* | Rəqs<br>yallısı | 1. Mahnı ilə<br>2.İnstrumental | $ais^1$-<br>$gis^2$<br>$ais^1$-$e^2$ |
| 16. Ürfanı | 3 | Cis şur | 2/4;<br>6/8<br>(3/4);<br>6/8<br>(3/4) | *Andante;<br>Moderato;<br>Allegretto* | Rəqs<br>yallısı | İnstrumental | $h^1$-$gis^2$<br>$h^1$-$a^2$ |
| 17. Qaleyi | 3 | D segah | 2/4;<br>6/8;<br>6/8<br>(3/4) | *Andante;<br>Moderato;<br>Presto* | - | İnstrumental | $d^1$-$g^1$<br>$b^k$-$g^1$<br>$d^1$-$g^1$ |
| 18. Ləyli<br>xani | - | - | - | - | - | Mahnı ilə | - |
| 19. Hoynare | - | - | - | - | - | Mahnı ilə | - |
| 20.<br>Güleynare | - | - | - | - | - | Mahnı ilə | - |
| 21. Nənüke | - | - | - | - | - | Mahnı ilə | - |
| 22. Qazı-<br>qazı | 3 | - | 6/8;<br>6/8;<br>6/8 | *Andante;<br>Moderato;<br>Allegro* | Oyun<br>yallısı | Mahnı ilə | - |
| 23. Kürdün<br>ağırı | 3 | Cis şur | 3/4;<br>6/8<br>(3/4) | *Andante;<br>Moderato* | Rəqs<br>yallısı | - | - |
| 24. Çöp-<br>çöpü | 3 | Cis şur | 4/4;<br>4/4;<br>4/4 | *Andante;<br>Moderato;<br>Allegretto* | Oyun<br>yallısı | Mahnı ilə | $ais^1$-<br>$gis^2$<br>$cis^2$-$fis^2$ |
| 25. Ciran-<br>ciran | 1 | A şur | 6/8 | *Moderato* | - | - | $f^1$-$es^2$ |

Yallıların nota yazılması istiqamətində məqsədyönlü şəkildə görülən elmi işlərdən biri də Ə.İsazadə ilə bəstəkar N.Məmmədovun birlikdə tərtib etdikləri "Azərbaycan xalq mahnıları və oyun havaları" adlı topludur. Buraya daxil olan nümunələr – xalq mahnıları və rəqsləri, o cümlədən, yallılar respublikamızın Ağdam, Şəki, Zaqatala, Balakən, Salyan, Naxçıvan bölgələrindən toplanmışdır. Məcmuəyə 24yallı rəqsi daxildir ki, onların əksəriyyətinin Naxçıvan MR-nın ərazisindən, məhz Şərur, Ordubad və Şahbuz rayonlarından toplanmasını xüsusilə qeyd etməliyik. **Bax: cədvəl № 2.**

***Cədvəl №2***

| **Yallının adı** | **Hissələrinin sayı** | **Məqamı** | **Metri** | **Tempi** | **Diapazonu** |
|---|---|---|---|---|---|
| 1. Kürdü | 2 | D şur | 2/4; 5/8 | *Allegretto* | $d^1$-$d^2$ |
| 2. Köçəri | 2 | E segah | 2/4; 6/8 | *Allegretto* | $dis^1$-$c^2$ |
| 3. Yallı | 1 | D şur | 6/8<br>(3/4) | *Allegretto* | $d^1$-$b^1$ |
| 4. Popurri | 1 | G şur | 2/4; 5/8 | *Allegretto* | $e^1$-$c^2$ |
| 5. Festivalı | 2 | C şur | 2/4; 6/8 | *Allegretto* | $c^1$-$as^1$ |
| 6. Yallı | 1 | F rast | 6/8 | *Allegretto* | $c^2$-$a^2$ |

| | | | | | |
|---|---|---|---|---|---|
| 7. Dönə | 2 | Fis segah | 6/8 | *Moderato; Allegretto* | $fis^1$-$h^1$ |
| 8. Qazı-qazı | 2 | A şur | 6/8 | *Allegretto; Allegro* | $g^1$-$es^2$ |
| 9. Yallı | 2 | G şur | 2/4; 6/8 | *Allegretto; Allegro* | $es^2$-$c^3$ |
| 10. Ürfanı | 2 | D şur | 2/4; 6/8 | *Moderato; Allegro* | $h^k$-$d^2$ |
| 11. Xələfi | 2 | G şur | 3/4; 6/8 | *Moderato* | $c^1$-$d^2$ |
| 12. Yallı | 1 | D şur | 6/8 | *Allegro* | $d^2$-$a^2$ |
| 13. Qaladan-qalaya | 2 | E şur | 2/4; 6/8 | *Moderato* | $e^1$-$d^2$ |
| 14. Arzumanı | 1 | F rast | 2/4; 6/8 | *Moderato; Allegro* | $e^2$-$c^2$ |
| 15. Yallı | 1 | D segah | 6/8 | *Allegro* | $c^2$-$g^2$ |
| 16. Tənzərə | 2 | D şur | 2/4 | *Allegretto; Allegro* | $c^1$-$c^2$ |
| 17. Gopu | 2 | C rast – H segah – C rast | 6/8 | *Moderato* | $g^1$-$f^2$ |
| 18. Yallı | 1 | D şur | 2/4 | *Allegretto* | $c^2$-$f^2$ |
| 19. İki ayaq | 2 | D çahargah - G rast | 6/8 | *Moderato; Allegro* | $d^1$-$d^2$ |
| 20. Kürdüstanı | 1 | D şur | 2/4 | *Allegretto* | $d^2$-$b^2$ |
| 21. Yallı | 1 | D şüştər | 3/8 | *Allegretto* | $a^1$-$cis^1$ |
| 22. Şəruri | 2 | E şur | 2/4; 6/8 | *Allegretto; Allegro* | $e^1$-$c^2$ |
| 23. Güleynarı | 1 | D şüştər | 2/4 | *Allegretto* | $a^1$-$d^2$ |
| 24. Zülfanı | 1 | D segah | 6/8 | *Allegretto* | $b^1$-$g^2$ |

Yallı rəqslərimizin tədqiqi sahəsində Ə.Ələkbərovanın gördüyü işlər maraqlı və dəyərlidir. Onun "Naxçıvan bölgəsinin yallı rəqsləri" adlı dissertasiya işi [14] bu janrın öyrənilməsi yolunda atılan daha bir addım kimi elmi əhəmiyyətə malikdir.Uzun illər Naxçıvan bölgəsinin yallı rəqslərini araşdırmış Əqidə xanım onların təsnifatını aparmışdır. O, "Tənzərə" yallısının 11, "Köçəri" yallısının isə 10 variantını üzə çıxarmış, həmin rəqsləri müqayisəli təhlil etmiş və tədqiqatın sonunda maraqlı elmi nəticələrə gəlmişdir. **Bax: cədvəl № 3.** Onu da qeyd edək ki, araşdırmaçı topladığı yallı rəqslərini müxtəlif zurnaçıların ifasından nota yazmışdır.

***Cədvəl №3***

| Yallının adı | Hissələrinin sayı | Məqamı | Metri | Diapazonu |
|---|---|---|---|---|
| 1.Köçəri. I variant | 2 | G şur | 2/4; 6/8 | $d^1$-$c^2$ |
| 2. Köçəri. II variant | 2 | G şur | 2/4; 6/8 | $f^1$-$d^2$<br>$d^1$-$c^2$ |
| 3. Köçəri. III variant | 2 | G şur | 2/4; 6/8 | $d^1$-$c^2$<br>$f^1$-$b^2$ |
| 4. Köçəri. VIII variant | 1 | G şur | 2/4 | $f^1$-$c^2$ |
| 5. Köçəri. IX variant | 2 | G şur | 2/4; 6/8 | $d^1$-$c^2$<br>$f^1$-$c^2$ |
| 6. Köçəri. X variant | 2 | G şur | 2/4; 6/8 | $d^1$-$c^2$<br>$es^1$-$c^2$ |
| 7. Tənzərə I variant | 2 | G şur-F şur, | 2/4; 6/8 | $g^1$-$c^2$ |

| | | | | |
|---|---|---|---|---|
| | | G şur | | $g^1$-$d^2$ |
| 8.Tənzərə II variant | 2 | G şur | 2/4; 6/8 | $f^1$-$d^2$<br>$g^1$-$d^2$ |
| 9. Tənzərə III variant | 2 | G şur | 2/4; 6/8 | $e^1$-$f^2$<br>$f^1$-$d^2$ |
| 10. Tənzərə IV variant | 2 | G şur | 2/4; 6/8 | $f^1$-$d^2$<br>$g^1$-$d^2$ |
| 11. Tənzərə V variant | 2 | G şur | 2/4; 6/8 | $g^1$-$d^2$<br>$g^1$-$d^2$ |
| 12. Tənzərə VI variant | 1 | G şur | 6/8 | $f^1$-$d^2$ |
| 13.Tənzərə VII variant | 2 | G şur | 2/4; 6/8 | $f^1$-$d^2$<br>$f^1$-$d^2$ |
| 14. Tənzərə VIII variant | 2 | G şur | 2/4; 6/8 | $f^1$-$d^2$<br>$g^1$-$f^2$ |
| 15. Tənzərə IX variant | 2 | G şur | 2/4; 6/8 | $g^1$-$f^2$<br>$g^1$-$es^2$ |
| 16. Tənzərə X variant | 2 | G şur | 2/4; 6/8 | $f^1$-$f^2$<br>$e^1$-$es^2$ |
| 17. Tənzərə XI variant | 2 | G şur | 2/4; 6/8 | $e^1$-$f^2$<br>$g^1$-$d^2$ |
| 18. Arzuman | 2 | B rast | 2/4; 6/8 | $g^1$-$f^2$<br>$b^1$-$f^2$ |
| 19. Qaladan-qalaya | 2 | G şur | 2/4; 6/8 | $g^1$-$f^2$<br>$g^1$-$f^2$ |
| 20. El yallısı | 2 | B şur | 6/8; 6/8 | $g^1$-$as^2$<br>$b^1$-$as^2$ |
| 21. Kürdün ağırı | 2 | G şur | 2/4; 6/8 | $f^1$-$d^2$<br>$e^1$-$d^2$ |
| 22. Popurri | 2 | G şur | 2/4; 6/8 | $g^1$-$f^2$<br>$g^1$-$d^2$ |
| 23. Çınqı-çınqı | 2 | F şur | 2/4; 6/8 | $d^1$-$c^2$<br>$f^1$-$c^2$ |
| 24. Üç ayaq | 2 | G şur | 6/8; 6/8 | $e^1$-$d^2$<br>$d^1$-$es^2$ |
| 25. Urfanı | 2 | G şur | 2/4; 6/8 | $e^1$-$f^2$<br>$e^1$-$g^2$ |
| 26. Qarxun | 2 | G şur | 3/4; 6/8 | $e^1$-$es^2$<br>$f^1$-$d^2$ |
| 27. Köçəri | 2 | G şur | 2/4; 6/8 | $g^1$-$es^2$<br>$e^1$-$d^2$ |
| 28. Tənzərə | 2 | G şur | 2/4; 6/8 | $f^1$-$d^2$<br>$f^1$-$d^2$ |
| 29. Xələfi | 2 | G şur | 2/4; 6/8 | $es^1$-$g^2$<br>$d^1$-$d^2$ |
| 30. Gopu | 2 | G şur | 6/8; 6/8 | $e^1$-$d^2$<br>$e^1$-$b^2$ |
| 31. Hoynare | 1 | B rast | 6/8 | $f^1$-$d^2$ |
| 32. Qaz-qazı | 1 | G şur | 6/8 | $g^1$-$c^2$ |
| 33. Ağır yallı | 1 | G şur | 2/4 | $g^1$-$f^2$ |
| 34. Telo | 1 | C şur | 6/8 | $b^1$-$as^2$ |
| 35. Çöpüdüm | 1 | B rast | 6/8 | $a^1$-$es^2$ |
| 36. Dırqoi | 1 | B rast | 2/4 | $g^1$-$d^2$ |

| | | | | |
|---|---|---|---|---|
| 37. Şəril yallısı | 1 | G şur | 2/4 | $e^1$-$d^2$ |
| 38. Şəreyi | 1 | G şur | 2/4 | $f^1$-$d^2$ |
| 39. Yerevanı | 3 | G şur | 6/8; 6/8; 6/8 | $e^1$-$f^2$; $es^1$-$d^2$; $e^1$-$c^2$ |

S.Əlizadə “Naxçıvan yallıları” adlı araşdırmasında yallı rəqslərimizi tədqiq edərək 1971-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası - N.F) bitirərkən diplom işi kimi təqdim etmişdir. S.Əlizadə bir hissəli “Şərili” (Cis şur), “Zülfani” (Cis şur), “Şəreyi” (Cis şur), “Ağır yallı” (Cis şur), “Xanağa yallısı” (C II növ çahargah), “Arıncı” (Gis şur), “Sələsüz” (Cis segah), “Cənəmbər” (Cis şur), “Loliqi” (Dis segah), “Dırqoyu” (E rast), iki hissəli “Xələfi” (Cis şur), “Qaqili” (Cis şur – E rast – Cis şur), “Sərxanı yallısı” (Cis şur), “Sələsüz yallısı” (Cis şur), “Qarxun” (Cis şur), “Papiro” (Cis şur), “Arzumanı” (E rast), üç hissəli “Bahaddini” (Cis şur –H rast), “Çöp-çöpü” (Cis şur) yallılarını tədqiqata cəlb etmişdir.

“Yallı” rəqslərinin toplanması və nota salınması ilə yanaşı, işləmələri də mühüm əhəmiyyət kəsb edir. Bu sahədə bəstəkar M.Mirzəyevin fəaliyyətini qeyd etmək lazımdır. O, “Köçəri” (G şur), “Çınq-çınq” (C şur), “Səlamı” (Cis şur), “Tənzərə” (D şur) yallılarını fortepiano üçün işləyərək 1974-cü ildə “*Народная музыка Нахичевани*” adlı kitabında nəşr etdirmişdir. Onu da qeyd edək ki, həmin kitab 2014-cü ildə Azərbaycan dilinə tərcümə edilərək ikinci dəfə nəşr olunmuşdur [11].

Son illərdə də “yallı” rəqslərinin toplanması və nota salınması işləri davam etdirilir. A.Quliyeva “Türk aləmində Naxçıvan musiqi mədəniyyəti” adlı dissertasiya işində [8] Naxçıvan yallıları iləTürkiyə yallılarının (“Halay”larının - N.F) müqayisəli təhlilini aparmış və maraqlı nəticələrə gəlmişdir. O, “Hağışda” (Cis şur), “Tənzərə” (G şur), “Köçəri” (G şur), “Üçayaq yallı” (Cis şur), “Ürfani” (Cis şur), “Dönə yallı” (D segah), “Siyaqutu” (C rast –A şur), “İkiayaq yallı” (D çahargah –D segah –D çahargah), “Qaladan-qalaya” (Cis şur) adlı yallıları tədqiqata cəlb etmişdir.

G.Məmmədovanın nota yazdığı “Qaz-qazı” (Cis şur), “Qaleyi” (D segah), “Hoynarə” (Cis şur) yallıları “Naxçıvan musiqi folkloru” kitabında [9] öz əksini tapmışdır.

“Yallı”larımızın qorunması və yaşadılması sahəsində görkəmli tarzən və pedaqoq Ə.Məmmədlinin topladığı nümunələr də çox dəyərlidir. O, unudulmaqda olan yallı rəqslərimizi nota yazmışdır. Əkrəm və Kənan Məmmədlilərinin birlikdə topladıqları və nota saldıqları nümunələr 2015-ci ildə “Naxçıvan – Şərur el yallıları” adlı məcmuədə [10] işıq üzü görmüşdür. Burada yallıların ifa xüsusiyyətlərindən, not yazılarından və variantlarından bəhs edilir. Təqdim olunan yallı nümunələri melodiyanı solo ifa edən və züy tutan iki zurnanın partiyası, o cümlədən də zərb alətlərinin funksiyasını yerinə yetirən çönbax və çilikin not yazısında qeyd edilib. Həmin yallıların əksəriyyəti Naxçıvanın Şərur bölgəsinə aiddir. Onu da qeyd edək ki, Şahbuz rayonundan və Türkiyənin İqdır, Ərzurum bölgələrindən toplanmış Azərbaycan köklü yallı rəqsləri də adı çəkilən məcmuəyə daxil edilmişdir. “Naxçıvan – Şərur el yallıları” adlı məcmuədə 92 yallının (**Bax: cədvəl № 4)**not yazısı öz əksini tapmışdır.

***Cədvəl №4***

| **Yallının adı** | **Hissələrinin sayı** | **Məqamı** | **Metri** | **Tempi** | **Diapazonu** |
|---|---|---|---|---|---|
| 1. Ağrı gülü yallısı | 2 | C şur | 2/4; 6/8 | *Andante;* | $b^1$-$as^2$ |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | *Allegro* | $b^1$-$g^2$ |
| 2. Aman Lelo yallısı | 1 | C şur | 6/8 | *Moderato* | $c^2$-$g^2$ |
| 3. Aman yar yallısı | 1 | D şur | 2/4 | *Moderato* | $d^2$-$a^2$ |
| 4. Amangəl yallısı | 1 | D şur | 2/4 | *Moderato* | $d^2$-$a^2$ |
| 5. Asta Qarabağı yallısı | 2 | D segah | 3/4; 6/8 | *Andante; Allegro* | $d^2$-$b^2$ $b^2$-$as^2$ |
| 6. Ay xanım yallısı | 1 | D şur | 6/8 | *Moderato* | $d^2$-$g^2$ |
| 7. Baharı yallısı | 3 | G şur – E segah – F rast | 3/8; 6/8; 6/8 | *Andante; Moderato; Allegro* | $g^2$-$d^3$ $c^2$-$b^2$ |
| 8. Bəndi yallısı | 1 | F rast | 6/8 | *Allegro* | $e^2$-$c^3$ |
| 9. Bəndil yallısı | 2 | C rast | 2/4; 6/8 | *Moderato; Allegro vivo* | $g^1$-$e^2$ |
| 10. Bir addım geri yallısı | 2 | D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $d^2$-$c^3$ |
| 11. Cərgəbaz yallısı | 1 | E şur | 2/4 | *Moderato* | $cis^2$-$a^2$ |
| 12. Çaleyi yallısı | 2 | D şur – F rast – D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $d^2$-$a^2$ $c^2$-$b^2$ |
| 13.Çınq-çınq yallısı | 2 | D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $d^2$-$g^2$ |
| 14. Çökəli yallısı | 1 | E segah – D şur | 2/4 | *Andante* | $c^2$-$a^2$ |
| 15. Dağ gülü yallısı | 1 | D segah | 6/8 | *Allegro* | $d^2$-$g^2$ |
| 16. Dağı yallısı | 1 | D hümayun | 6/8 | *Allegro* | $d^2$-$a^2$ |
| 17. Dalan yallısı | 1 | C rast | ¾ | *Allegro* | $h^1$-$f^2$ |
| 18. Desoy yallısı | 2 | D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $c^2$-$b^2$ |
| 19. Dəllo yallısı | 1 | D şur | 6/8 | *Allegro* | $d^2$-$g^2$ |
| 20. Dikdabanı yallısı | 1 | D şur | 2/4 | *Andante* | $e^2$-$a^2$ |
| 21. Dönə yallısı | 2 | D segah | 6/8; 6/8 | *Andante; Allegro* | $b^1$-$g^2$ |
| 22. Durqoyu yallısı | 2 | D şur | 3/4; 6/8 | *Moderato; Allegro* | $c^2$-$c^3$ |
| 23. El yallısı | 3 | D şur | 2/4; 3/4; 6/8 | *Largo; Moderato; Allegro* | $h^1$-$c^3$ $c^2$-$a^2$ |
| 24. II El yallısı | 2 | D şur – E segah – D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $h^1$-$c^3$ $h^1$-$b^2$ |
| 25. Əfsəri yallısı | 1 | D şur – F rast - D şur | 6/8 | *Allegro* | $c^1$-$a^2$ |
| 26. Gilani yallısı | 2 | D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $c^2$-$g^2$ |
| 27. Göyçəməni yallısı | 1 | F rast | 6/8 | *Allegro* | $e^2$-$a^2$ |
| 28. Gülüşanə yallısı | 2 | D şur | 3/4; 6/8 | *Moderato; Allegro* | $d^2$-$g^2$ $h^1$-$g^2$ |
| 29. Güneyi yallısı | 2 | F rast | 2/4; 6/8 | *Andante; Allegro* | $e^2$-$c^3$ |
| 30.Hazıraviçin yallısı | 2 | D şur | 2/4; 6/8 | *Moderato; Allegro* | $c^2$-$g^2$ |
| 31. Hərilli yallısı | 2 | C şur | 2/4; 6/8 | *Andante;* | $d^2$-$b^2$ |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | *Allegro* | |
| 32. Hoynəri yallısı | 1 | F rast | 6/8 | *Allegro vivo* | $d^2$-$a^2$ |
| 33. Xanı xanı yallısı | 2 | D şur | 3/4; 6/8 | *Moderato; Allegro* | $h^1$-$as^2$ $c^2$-$as^2$ |
| 34. Xələfi yallısı | 2 | D şur | 3/4; 6/8 | *Moderato; Allegro* | $h^1$-$as^2$ $d^2$-$g^2$ |
| 35. Xəlili yallısı | 2 | E segah | 3/4; 6/8 | *Andante; Allegro* | $e^2$-$c^3$ $c^2$-$c^3$ |
| 36. İki ayağı yallısı | 2 | D bayatı-şiraz | 2/4; 6/8 | *Andante; Allegro* | $cis^2$-$a^2$ $cis^2$-$g^2$ |
| 37. İkinci iki ayağı yallısı | 2 | D çahargah | 3/4; 6/8 | *Allegro; Allargo* | $cis^2$-$g^2$ |
| 38. İrəvanı yallısı | 2 | E segah | 3/4; 6/8 | *Andantino; Allegro* | $c^2$-$d^3$ $h^1$-$b^2$ |
| 39. Kafeyi yallısı | 1 | E segah | 6/8 | *Allegro* | $e^2$-$a^2$ |
| 40. Kərimbəy yallısı | 2 | C rast | 2/4; 6/8 | *Moderato; Allegro* | $c^2$-$g^2$ $c^2$-$a^2$ |
| 41. Köçəri yallısı | 2 | E segah – D şur | 2/4; 6/8 | *Moderato; Allegro vivo* | $d^2$-$as^2$ $dis^2$-$a^2$ |
| 42. Köşginən gəl yallısı | 1 | C rast | 6/8 | *Andante* | $g^1$-$f^2$ |
| 43. Qaleyi yallısı | 3 | D şur | 2/4; 3/4; 6/8 | *Andante; Moderato; Allegro* | $c^2$-$b^2$ $d^2$-$a^2$ |
| 44. Qara kilsə yallısı | 1 | E segah | ¾ | *Andante* | $c^2$-$b^2$ |
| 45. Qaz ayağı yallısı | 1 | E segah | 6/8 | *Allegro* | $e^2$-$h^2$ |
| 46. Qazı-qazı yallısı | 1 | D şur – E segah | 6/8 | *Allegro* | $c^2$-$b^2$ |
| 47.Qəmbəryamanı yallısı | 1 | E segah | 2/4 | *Moderato* | $e^2$-$a^2$ |
| 48. Qənimo yallısı | 1 | D şur | 6/8 | *Allegro* | $a^1$-$a^2$ |
| 49. Qızbiryana yallısı | 2 | D segah | 2/4; 6/8 | *Moderato; Allegro vivo* | $d^2$-$g^2$ |
| 50. Qızılbaş yallısı | 1 | D şur | 2/4 | *Moderato* | $d^2$-$a^2$ |
| 51. Qoçəri yallısı | 1 | D şur | 2/4 | *Moderato* | $d^2$-$b^2$ |
| 52. Leyla hanı yallısı | 2 | D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $d^2$-$b^2$ |
| 53. Ləyli xani yallısı | 2 | D şur | 3/4; 6/8 | *Moderato; Allegro* | $d^2$-$g^2$ |
| 54. Mərcanı yallısı | 2 | D şur | 3/4; 6/8 | *Moderato; Allegro* | $c^2$-$b^2$ $c^2$-$a^2$ |
| 55. Mərcanlar yallısı | 2 | D şur | 2/4; 6/8 | *Moderato; Allegro* | $f^1$-$c^3$ $f^2$-$c^2$ |
| 56. Nanay yallısı | 1 | E segah | 6/8 | *Allegro* | $c^2$-$a^2$ |
| 57.Nareyi yallısı | 1 | D şur | 6/8 | *Allegro* | $c^2$-$c^3$ |
| 58. Nazilə yallısı | 1 | D şur | 6/8 | *Allegro* | $d^2$-$g^2$ |
| 59. Nuran yallısı | 1 | D şur | 2/4 | *Andante* | $f^2$-$c^3$ |
| 60. Nuraşan yallısı | 2 | D şur | 3/4; 6/8 | *Andante; Allegro* | $d^2$-$g^2$ |
| 61. Osmanlı yallısı | 2 | C şur | 2/4; 6/8 | *Andante; Allegro* | $es^2$-$c^3$ |
| 62. Papili yallısı | 1 | D şur | 6/8 | *Allegro* | $d^2$-$b^2$ |
| 63. Paşam gəl yallısı | 1 | F rast – D şur – F rast | 6/8 | *Allegro* | $c^2$-$as^2$ |

| | | | | | |
|---|---|---|---|---|---|
| 64. Rüstəmbazı yallısı | 2 | C şur | 2/4; 6/8 | *Moderato; Allegro vivo* | $b^1$-$c^3$ |
| 65. Salamı yallısı | 1 | D şur | 6/8 | *Allegro* | $c^2$-$b^2$ |
| 66. Şareyi yallısı | 1 | E segah | 6/8 | *Allegro* | $c^2$-$a^2$ |
| 67. Seyranı yallısı | 1 | C rast | 6/8 | *Allegro* | $h^2$-$e^2$ |
| 68. Sələni yallısı | 2 | D segah | 2/4; 6/8 | *Andante; Allegro* | $d^2$-$g^2$ |
| 69. Sər-səri yallısı | 1 | D şur | 6/8 | *Allegro* | $c^2$-$a^2$ |
| 70. Sərsəvan yallısı | 1 | D şur | 6/8 | *Allegro* | $d^2$-$b^2$ |
| 71. Sındırma yallısı | 1 | D rast – H şur | 6/8 | *Allegro* | $gis^1$-$c^3$ |
| 72. Siyaqutu yallısı | 2 | D şur | 6/8; 6/8 | *Andante; Allegro* | $d^2$-$b^2$ $d^2$-$a^2$ |
| 73. Söylə yallısı | 2 | D şur | 3/4; 6/8 | *Moderato; Allegro* | $d^2$-$b^2$ $d^2$-$a^2$ |
| 74. Suskayi yallısı | 1 | C rast | 6/8 | *Allegro* | $a^1$-$g^2$ |
| 75. Şahsevəri yallısı | 2 | F rast | 3/4; 6/8 | *Moderato; Moderato* | $c^2$-$a^2$ $d^2$-$b^2$ |
| 76. Şahgeldi yallısı | 1 | D şur | 6/8 | *Allegro* | $d^2$-$a^2$ |
| 77. Şamama gəlin yallısı | 2 | D şur | 2/4; 6/8 | *Moderato; Allegro* | $d^2$-$g^2$ |
| 78. Şəli-Şəli yallısı | 2 | D şur | 2/4; 6/8 | *Moderato; Allegro* | $d^2$-$b^2$ |
| 79. Şərili köçərisi yallısı | 2 | E çahargah | 2/4; 6/8 | *Moderato; Allegri vivo* | $e^2$-$h^2$ |
| 80. Şərili yallısı | 1 | D şur | 2/4 | *Moderato* | $d^2$-$b^2$ |
| 81. Şirhanı yallısı | 1 | C rast | 2/4 | *Moderato* | $g^1$-$g^2$ |
| 82. Tello yallısı | 1 | Es rast –D segah – Es rast – C şur | 6/8 | *Allegro* | $c^2$-$g^2$ |
| 83. Tənzərə yallısı | 2 | D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $d^2$-$c^3$ $c^2$-$b^2$ |
| 84. Tirməşal yallısı | 2 | C şur; C rast | 2/4; 6/8 | *Andante; Allegro* | $c^2$-$g^2$ $h^1$-$g^2$ |
| 85. Türkanı yallısı | 2 | D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $c^2$-$a^2$ |
| 86. Urfanı yallısı | 2 | D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $c^2$-$a^2$ $c^2$-$b^2$ |
| 87. Urfanı yallısı (2-ci variant) | 2 | D şur | 2/4; 6/8 | *Andante; Allegro vivo* | $c^2$-$a^2$ |
| 88. Üç ayağı yallısı | 2 | D şur | 3/4; 6/8 | *Moderato; Allegro* | $h^1$-$a^2$ $c^2$-$a^2$ |
| 89. Üç ayağı yallısı (2-ci variantda) | 2 | H şur– E şur – H şur | 6/8; 6/8 | *Moderato; Allegro* | $a^1$-$a^2$ |
| 90. Yeli yeri yallısı | 1 | D şur – F rast – D şur | 6/8 | *Moderato* | $c^2$-$a^2$ |
| 91. Zəngi yallısı | 1 | C rast | 6/8 | *Allegro* | $a^1$-$fis^2$ |
| 92. Zor-zoru yallısı | 2 | D şur – F rast – D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $d^2$-$c^3$ |

Tədqiqatçı R.Bəhmənlinin uzun illər apardığı araşdırmalar nəticəsində ərsəyə gəlmiş "Azərbaycan yallıları" adlı dərs vəsaitində [2] Naxçıvan MR, Şəki, Şirvan, Kəlbəcər və İrəvandan toplanmış 90 adda yallı rəqsinin not yazısı, eləcə də onların qədim tarixi, ritmik xüsusiyyətləri, xoreoqrafik oyun qaydaları haqqında geniş məlumat öz əksini tapmışdır. Onlardan 20-si bir hissəli, 66-ı iki hissəli, 4-ü isə üç

hissəli yallılardır. Yuxarıda adları qeyd edilən alimlərdən fərqli olaraq R.Bəhmənli tanınmış yallılarla yanaşı, "Havarı", "Dərviş baba", "Oravan", "Dizdən qırma", "Paşa köçdü", "Gülü basma", "Ala gülbəngi", "Ağbulaq", "Ulu yurd", "Ağbaba", "Məzrə", "Göyçə", "Hacı Nəzər", "Papılı", "Qalaça", "Yellicə", "İstibulaq" kimi rəqsləri də nota yazmışdır. **Bax: cədvəl № 5.**Onun 2003-2015-ci illərdə topladığı yallılar əsasən müxtəlif zurna və qismən də qarmon ifaçılarından nota salınmışdır.

***Cədvəl № 5***

| **Yallının adı** | **Hissələrinin sayı** | **Məqamı** | **Metri** | **Tempi** | **Diapazonu** |
|---|---|---|---|---|---|
| 1.Naxçıvan | 2 | F rast – F rast | 3/4; 6/8 (3/4) | *Allegro; Vivo* | $c^1$-$b^1$; $c^1$-$c^2$ |
| 2.Qənimo | 1 | A şur – C rast – H segah – A şur | 6/8 | *Allegretto* | $g^1$-$e^2$ |
| 3.Festivalı /Gümrü | 2 | D şur – F rast – D şur; D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $d^1$-$b^2$; $d^1$-$a^2$ |
| 4.Köçəri (Şərur variantı) | 2 | E segah; E segah | 2/4; 6/8 | *Andante; Presto* | $c^1$-$h^2$; $c^1$-$b^2$ |
| 5.Zülfanı | 1 | A şur | 6/8 | *Allegretto* | $g^1$-$d^2$ |
| 6.Delasoru / Buğda II hissə (Ordubad variantı); II hissə (Şərur variantı) | 2 | D şur; D şur; D şur | 2/4; 6/8; 6/8 | *Andante; Allegro* | $c^1$-$b^2$; $c^1$-$b^2$ |
| 7.Kürdü | 1 | D şur | 6/8 | *Moderato* | $c^1$-$c^2$; $c^1$-$c^2$ |
| 8.Ürfanı | 2 | G şur; G şur – B rast – G şur | 2/4; 6/8 | *Moderato; Vivo* | $f^1$-$g^2$; $e^1$-$es^2$ |
| 9.Çopudum | 2 | E segah – G şur – E segah; E segah | 3/8; 6/8 | *Andante;Allegro* | $c^1$-$es^2$; $c^1$-$h^1$ |
| 10. Ağbaba | 2 | E segah; E segah | 2/4; 6/8 | *Andante; Presto* | $c^1$-$b^1$; $c^1$-$h^1$ |
| 11.Hoynare | 1 | G rast | 6/8 | *Allegretto* | $d^1$-$h^2$ |
| 12.Dəhnə / El yallısı | 2 | D şur; D şur – E segah – D şur | 2/4; 6/8 | *Andante; Vivo* | $c^1$-$b^1$; $c^1$-$b^1$ |
| 13. Xələfi | 2 | E şur; E şur | 3/4; 6/8 | *Moderato; Presto* | $cis^1$-$c^2$; $d^1$-$a^1$ |
| 14.Çöp-çöpü / Nehrəmi | 1 | H segah | 6/8 (3/4) | *Allegro* | $a^1$-$es^2$ |
| 15.Laçın bala | 1 | D şur | 6/8 | *Moderato* | $c^1$-$b^1$ |
| 16.Dırqoyu / Qaleyi; Siyaqutu | 2 | C rast; C rast – A şur | 4/4; 6/8 | *Moderato; Allegro* | $g^1$-$f^2$; $fis^1$-$f^2$ |
| 17.Köçəri (Ordubad variantı) | 2 | E segah; E segah | 2/4; 6/8 | *Andante; Presto* | $c^1$-$a^1$; $c^1$-$a^1$ |
| 18.Ulu yurd; Qayabaşı | 2 | G şur – B rast – G şur; G şur – B rast – G şur | 2/4; 6/8 | *Andante; Vivo* | $f^1$-$g^2$; $f^1$-$f^2$ |
| 19.Göyçə | 2 | F rast; F rast | 2/4; 6/8 | *Andante; Vivo* | $d^1$-$b^1$; $c^1$-$b^1$ |

| | | | | | |
|---|---|---|---|---|---|
| 20. Şareyi | 2 | E şur; E şur | 2/4; 6/8 | *Andante; Allegro* | $d^1$-$c^2$; $d^1$-$c^2$ |
| 21.Poppuri / Dəlilo | 2 | F rast | 2/4; 6/8 | *Andante; Vivo* | $d^1$-$b^1$; $d^1$-$b^1$ |
| 22.Çəçələ barmaq | 2 | F rast; F rast | 3/8; 6/8 (3/4) | *Andante; Vivo* | $e^1$-$b^1$; $e^1$-$b^1$ |
| 23.Dönə | 2 | H segah; H segah | 3/8; 6/8 | *Andante; Presto* | $g^1$-$fis^2$; $g^1$-$fis^2$ |
| 24.İstibulaq / Qayış tutdu | 2 | B hümayun – D şüştər – B hümayun; A şur – E şur | 3/8; 6/8 | *Andante; Vivo* | $d^1$-$b^1$; $d^1$-$b^1$ |
| 25.Daşbulağı | 1 | D şur | 3/4 (6/8) | *Allegro* | $c^1$-$a^1$ |
| 26.Gülü basma / Məmmədbağırı | 2 | F rast; F rast | 2/4; 6/8 (3/4) | *Andante; Allegro* | $c^1$-$b^1$; $c^1$-$b^1$ |
| 27.Sareyi / Qofeyi | 1 | H segah | 6/8 | *Allegro* | $g^1$-$d^2$ |
| 28.Şahbuz / Bayram yallısı | 2 | D şur – F rast – D şur – F rast – D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $h^k$-$c^2$; $h^k$-$c^2$ |
| 29.Güleynare | 2 | G rast; G rast | 2/4; 6/8 | *Andante; Presto* | $d^1$-$c^2$; $d^1$-$c^2$ |
| 30.Yellicə / Novruzu | 2 | A şur – C rast – A şur; A şur – C rast – A şur | 2/4; 6/8 | *Andante; Vivo* | $g^1$-$a^2$; $g^1$-$a^2$ |
| 31.Çınqı-çınqı / Xərəc | 2 | D şur; D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $d^1$-$a^1$; $d^1$-$b^1$ |
| 32.El yallısı | 2 | D şur – E segah – F rast – D şur; D şur – F rast – D şur | 3/4; 6/8 | *Moderato; Allegro* | $c^1$-$c^2$; $c^1$-$c^2$ |
| 33.Ağbulaq | 2 | E şur – Fis segah – E şur; E şur – Fis segah – E şur | 2/4; 6/8 | *Andante; Allegro* | $d^1$-$c^2$; $d^1$-$c^2$ |
| 34.Dərviş baba | 1 | A segah | 6/8 | *Allegro* | $f^1$-$es^2$ |
| 35.Şəki | 1 | B şüştər | 4/4 | *Andante, Allegro* | $b^k$-$c^2$ |
| 36.Tənzərə (Şərur variantı) | 2 | A şur; A şur | 2/4; 6/8 | *Andante; Allegro* | $g^1$-$e^2$; $g^1$-$e^2$ |
| 37.Zopu | 1 | Fis segah | 6/8 | *Allegro* | $cis^1$-$h^1$ |
| 38.Ay lələ | 2 | E segah; E segah | 2/4; 6/8 | *Andante; Allegro* | $e^1$-$h^1$; $e^1$-$h^1$ |
| 39.İkiayaq | 2 | F rast; E segah | 3/4; 6/8 | *Allegro; Presto* | $c^1$-$b^1$; $c^1$-$a^1$ |
| 40.Tirmə şal / Arzuman | 2 | F rast; F rast | 2/4; 6/8 (3/4) | *Moderato; Presto* | $e^1$-$c^2$; $c^1$-$c^2$ |
| 41.İrəvan / Dördayaq | 3 | E segah; E segah; E segah | 3/4; 3/8; 6/8 | *Allegro; Allegro; Presto* | $h^k$-$c^2$; $c^1$-$c^2$; $c^1$-$b^1$ |
| 42.Hacı Nəzər | 2 | G rast; G rast | 2/4; 6/8 | *Andante; Vivo* | $f^1$-$c^2$; $fis^1$-$c^2$ |
| 43.Tənzərə (Ordubad variantı) | 2 | E şur; E şur | 2/4; 6/8 | *Andante; Allegro* | $e^1$-$h^1$; $e^1$-$c^2$ |
| 44.Gopu | 3 | H şur – D rast – H | 3/4; 6/8 | *Allegro;* | $a^1$-$g^2$; $a^1$-$g^2$; |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | şur; Cis segah; D rast | (3/4); 6/8 | *Allegro; Presto* | $gis^1-e^2$ |
| 45.Şərur / Ovçular I hissə (Naxçıvan variantı); I hissə (Şirvan variantı) | 2 | A şur; H segah – A şur; A şur | 2/4; 2/4; 6/8 | *Andante; Andante; Presto* | $g^1-g^2$; $g^1-f^2$; $fis^1-e^2$ |
| 46.Nare | 1 | D şur | 6/8 | *Allegro* | $d^1-b^1$ |
| 47.Şəranı | 2 | F II növ çahargah; F II növ çahargah | 3/4; 6/8 (3/4) | *Allegro; Allegro* | $c^1-c^2$; $c^1-c^2$ |
| 48.Qaladan-qalaya | 2 | G şur; G şur | 2/4; 6/8 | *Andante;Presto* | $g^1-f^2$; $g^1-f^2$ |
| 49.Ordubad | 2 | D şur – E segah – D şur; D şur – E segah – D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $h^k-a^1$; $h^k-a^1$ |
| 50.Havarı | 2 | D şur – A şur – D şur; D şur | 2/4; 6/8 | *Andante; Vivo* | $c^1-d^2$; $c^1-c^2$ |
| 51.Papılı | 2 | E şur; Fis segah | 2/4; 6/8 | *Andante; Vivo* | $g^1-c^2$; $d^1-b^2$ |
| 52.Qaraçuxa / Zağalı | 2 | D şur; D şur | 2/4; 6/8 (3/4) | *Andante; Vivo* | $c^1-c^2$; $c^1-b^1$ |
| 53.Üç pəncə / Axsaq yallı | 2 | C şüştər; C şüştər | 2/4; 6/8 | *Andante; Vivo* | $f^1-d^2$; $f^1-d^2$ |
| 54.Kürdün ağırı | 3 | D şur; D şur; D şur | 4/4; 3/4; 6/8 | *Andante; Allegro; Presto* | $h^k-d^2$; $h^k-b^2$;$c^1-b^1$ |
| 55.Ala gülbəngi | 2 | F rast; F rast | 3/4; 6/8 | *Andante; Vivo* | $c^1-b^1$; $c^1-b^1$ |
| 56.Qalaça | 2 | C şüştər; C şüştər | 3/4; 6/8 | *Moderato;Vivo* | $d^1-d^2$; $e^1-c^2$ |
| 57.Tello | 1 | C rast | 6/8 (3/4) | *Allegro* | $g^1-f^2$ |
| 58.Dal Dağıstanı | 2 | E şur – G rast – E şur; E şur – G rast – E şur | 2/4; 6/8 (3/4) | *Andante; Vivo* | $c^1-c^2$; $d^1-c^2$ |
| 59.Qazı-qazı | 1 | G şur – B rast – G şur | 6/8 | *Moderato* | $f^1-es^2$ |
| 60.Dizdən qırma / Ağır yallı | 2 | A şur; A şur | 3/8; 6/8 | *Andante; Allegro* | $f^1-e^2$; $ges^1-f^2$ |
| 61.Gülbəndi | 2 | D şur – D şur | 2/4; 6/8 | *Moderato; Vivo* | $h^k-d^2$; $h^k-d^2$ |
| 62.Üçayaq | 2 | C çahargah – C çahargah | 3/4; 6/8 | *Allegro; Allegro* | $c^1-h^1$; $des^1-h^1$ |
| 63.Üçbarmaq | 1 | B II növ çahargah – B çahargah | 6/8 (3/4) | *Allegro* | $b^k-es^2$ |
| 64.Altı qızlar | 2 | E segah; E segah | 2/4; 6/8 | *Moderato; Presto* | $h^k-b^1$; $c^1-b^1$ |
| 65.Kürdüstanı | 2 | E segah; E segah | 2/4; 6/8 | *Andante;Vivo* | $e^1-a^1$; $e^1-a^1$ |
| 66.Leyli xanı | 2 | E şur; E şur | 6/8; 6/8 | *Allegro; Presto* | $d^1-h^1$; $d^1-h^1$ |
| 67.Qara Pir | 2 | B rast; B rast | 2/4; 6/8 (3/4) | *Andante;Presto* | $f^1-f^2$; $f^1-f^2$ |
| 68.Ver-veri | 1 | E segah | 6/8 | *Allegro* | $c^1-b^1$ |
| 69.Məzrə / Çubuqlu yallı | 2 | C şüştər; C şüştər | 2/4; 6/8 (3/4) | *Andante; Allegro* | $g^1-f^2$; $f^1-f^2$ |
| 70.Taciri | 2 | F rast; F rast | 2/4; 6/8 (3/4) | *Andante; Allegro* | $e^1-c^2$; $e^1-c^2$ |
| 71.Yeqara | 2 | E segah; E segah | 2/4; 6/8 | *Andante;Presto* | $e^1-d^2$; $e^1-c^2$ |

| | | | | | |
|---|---|---|---|---|---|
| 72.Hərbə-zorba / Üz-üzə | 2 | A şur – H segah – A şur | 2/4; 6/8 (3/4) | *Moderato; Vivo* | $g^1$-$g^2$; $g^1$-$g^2$ |
| 73.Bakı | 2 | F II növ çahargah – B çahargah – F II növ çahargah; F II növ çahargah – B çahargah – F II növ çahargah | 2/4; 6/8 | *Andante; Vivo* | $d^1$-$d^2$; $d^1$-$d^2$ |
| 74.Mərcanlar / Cüt yallı | 2 | Fis segah | 2/4; 6/8 | *Andante; Vivo* | $d^1$-$d^2$; $d^1$-$c^2$ |
| 75.Culfa | 2 | F rast – F rast | 2/4; 6/8 | *Andante; Vivo* | $c^1$-$b^1$; $c^1$-$b^1$ |
| 76.Köhnə Qaradağlı | 1 | E şur; Fis segah | 6/8 | *Allegro* | $d^1$-$e^2$ |
| 77.Paşa köçdü / Cüt ayaq | 2 | G şur; G şur | 3/4; 6/8 | *Vivo;Allegro* | $f^1$-$d^2$; $g^1$-$es^2$ |
| 78.Oravan | 2 | A segah; A segah | 2/4; 6/8 | *Andante; Vivo* | $f^1$-$e^2$; $f^1$-$des^2$ |
| 79.Tərs yallı | 2 | F rast – D şur – F rast | 3/4; 6/8 (3/4) | *Allegro; Presto* | $h^1$-$b^1$; $c^1$-$b^1$ |
| 80.Nənüke / Döymə Yallı | 2 | D şur; D şur | 6/8; 6/8 | *Allegretto; Presto* | $c^1$-$b^1$; $a^k$-$b^1$ |
| 81.Tala | 1 | G şur – A segah – G şur | 2/4 | *Moderato* | $f^1$-$es^2$ |
| 82.Qəmlo | 1 | D şur | 6/8 | *Allegro* | $c^1$-$h^1$ |
| 83.Sürütmə / Qədim yallı | 1 | G şur | 2/4 | *Andante* | $f^1$-$d^2$ |
| 84.Çilgəz / İki dəstə | 2 | D şur - F rast - D şur; D şur - F rast - D şur | 2/4; 6/8 (3/4) | *Andante; Allegro* | $c^1$-$d^2$; $c^1$-$d^2$ |
| 85.Turacı | 2 | G rast; G rast | 3/8; 6/8 | *Moderato; Vivo* | $d^1$-$d^2$; $d^1$-$d^2$ |
| 86.Məlhəm | 2 | D şur; D şur – F rast – D şur | 2/4; 6/8 (3/4) | *Andante; Allegro* | $d^1$-$d^2$; $c^1$-$c^2$ |
| 87.Tamaşa / Dəsmal yallısı | 3 | D şur; D şur; D şur | 2/4; 6/8; 6/8 | *Andante; Allegro; Presto* | $d^1$-$d^2$; $d^1$-$d^2$; $c^1$-$c^2$ |
| 88.Məhsul | 2 | D şur – F rast – D şur; D şur – F rast – D şur | 2/4; 6/8 | *Andante; Allegretto* | $c^1$-$d^2$; $h^k$-$c^1$ |
| 89.Azərbaycan | 2 | G şur; G şur | 6/8 (3/4); 6/8 | *Allegretto; Vivo* | $g^1$-$g^2$; $f^1$-$d^2$ |
| 90.Gəmiqaya I hissə; II hissə (Şahbuz variantı); II hissə (Ordubad variantı) | 2 | F rast – D şur; D şur; D şur | 2/4; 6/8; 6/8 | *Andante; Vivo; Vivo* | $c^1$-$d^2$; $d^1$-$g^1$; $d^1$-$a^1$ |

Ayrı-ayrı illərdə nota salınmış yallı nümunələrinin adı, hissələrinin sayı, musiqi ölçüsü, tempi, məqamı, melodik diapazonu, o cümlədən də onlar arasındakı eyniyyət və müxtəliflik yuxarıdakı cədvəllərdə əks etdirilmişdir. Cədvəl №1-də göründüyü kimi, B.Hüseynlinin not yazısına əsasən “Ürfanı” yallısı üç hissəlidir. Lakin digər cədvəllərdə həmin yallının iki hissəli olduğunu gördük. “Qazı-qazı” yallısı üçüncü, dördüncü və beşinci cədvəllərdə bir hissəli, ikinci cədvəldə iki hissəli, B.Hüseynlinin not

yazısına əsasən isə üç hissəli rəqs kimi əks etdirilib. S.Əlizadə "Sələsüz" adlı yallının bir və iki hissəli variantını nota yazıb.

Cədvəl №1-də göstərilən bir hissəli "Ciran-ciran" yallısına digər cədvəllərdə rast gəlmirik. Cədvəl №1-də, 2-də və 3-də göstərilən iki hissəli "Qaladan-qalaya" və "Gopu" yallıları cədvəl №4-də əks olunmayıb.

Göründüyü kimi, eyni yallı nümunələrinin ayrı-ayrı illərə aid müxtəlif not yazısında onların bir, iki və üç hissədən ibarət olması bu janrın uzun mərhələli inkişaf prosesi və həmin rəqslərin variantlığı ilə əlaqədardır. Yallılar arasında melodik diapazonu $b_3$,$x_4$ intervallarını əhatə edən nümunələrə də rast gəlmək mümkündür. Məsələn: S.Əlizadənin not yazısına əsasən iki hissəli "Papiro" yallısının I hissəsinin melodik diapazonu $b_3$ intervalı həcmindədir. Ə.Məmmədlinin nota yazdığı melodik diapazonu $x_4$, $x_5$ intervalı həcmində olan yallı nümunələri cədvəl №4-də əks olunub. "Ay xanım yallısı", "Qəmbəryamanı yallısı", "Kərimbəy yallısı", "Siyaqutu yallısı" və digərləri buna nümunədir. R.Bəhmənlinin nota yazdığı yallılar arasında ən məhdud diapazon $əks_5$ intervalını əhatə edir. Həmin nümunələr cədvəl №5-də əks olunub. Bunlara "Çöp-çöpü / Nehrəmi, "Çəçələ barmaq", "Hacı Nəzər" nümunədir. Məlumdur ki, melodik diapazonun məhdud çərçivədə olması yallıların arxaikliyini göstərir.

Nadir sənət incilərimizdən sayılan yallıların qayaüstü təsvirlərə əsasən tədqiqi, ifa edilməsi, xoreoqrafik və musiqi tərəfdən araşdırılması, toplanması, nota yazılması və nəşr edilərək gələcək nəsillərə mədəni miras kimi ötürülməsi müasir paleoxoreoqrafiyanın, etnoxoreologiyanın və etnomusiqişünaslığın əsas vəzifələrindəndir. Yallı rəqslərimizin not nəşrlərinin gələcək araşdırmaların tədqiqat obyektinə çevriləcəyini düşünürük. Bu istiqamətdə görülən işlərlə birlik və vəhdət mücəssəməsi olan Azərbaycan yallılarını nadinc qonşularımız tərəfindən özününküləşdirmək təhlükəsindən xilas edə biləcəyimizi, milli musiqi xəzinəmizi və Azərbaycan etnomusiqişünaslığını daha da zənginləşdirəcəyimizi ehtimal edirik.

**ƏDƏBİYYAT:**

**Azərbaycan dilində**

1. Bağırov İ. "Yallı" haqqında bəzi qeydlər. // "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1972, 8 iyul.
2. Bəhmənli R. Azərbaycan yallıları. B.: Mütərcim, 2018, 140 s.
3. 3.Ələkbərova Ə. Yallı sənəti və onun Gəmiqaya rəsmləri ilə bağlılığı. // "Qobustan" jurnalı, 1999, № 2, s. 42-44
4. 4.Əlizadə S. Naxçıvan yallıları. Diplom işi. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası. Bakı, 1971, 62 s.
5. Həsənov K. Qədim Azərbaycan xalq rəqsləri. B.: İşıq, 1983, 59 s.
6. Hüseynli B. Azərbaycan xalq rəqs melodiyaları. I dəftər. B.: Azərnəşr, 1965, 42 s.
7. İsazadə Ə; Məmmədov N. Azərbaycan xalq mahnıları və oyun havaları. B.:Elm, 1984, 76 s.
8. Quliyeva A. Türk aləmində Naxçıvan musiqi mədəniyyəti. Sən.üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dis. Avtoref. Naxçıvan, 2011, 25 s
9. Məmmədova G. Naxçıvan musiqi folkloru. B.: ADPU-nəşriyyatı, 2012, 235 s.
10. Məmmədli Ə; Məmmədli K. Naxçıvan-Şərur el yallıları. N.: "Əcəmi" Nəşriyyatı Poliqrafiya Birliyi, 2015, 276 s.
11. Mirzəyev M. Naxçıvan xalq musiqisi. N.: "Əcəmi" Nəşriyyatı Poliqrafiya Birliyi, 2014, 48 s. (Təkrar nəşr).

12. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. B.: Yazıçı, 1989, 485 s.

**Rus dilində**

13. Алекперова А. Хороводные танцы «яллы» Нахичеванской зоны: Автор.диссерт.на соиск.уч.степ.кандид.искусств. Баку, 1994, 24 с.
14. Алекперова А.М. Хороводные танцы «яллы» Нахичеванской зоны: Дис. ...кандид.искусств. Баку, 1994, 124 с.

**Фазиля НАБИЕВА**
Старший научный сотрудник лаборатории
«Усовершенствование национальных
музыкальных инструментов» АНК,
доктор философии по искусствоведении

## О ЗНАЧЕНИИ НОТНЫХ ИЗДАНИЙ ТАНЦА “ЯЛЛЫ” В ЭТНОМУЗЫКОВЕДЕНИИ

***Резюме:*** *В статье дается обширная информация о нотных изданиях танцев «Яллы», собранных и нотированных отдельными азербайджанскими исследователями в разные годы. В составленных таблицах представлены названия, количество частей, ладовая основа, музыкальный размер, темп и диапазон звукоряда различных танцев «Яллы».*

***Ключевые слова:*** *«Яллы», круговые ритуалы, поклонение солнцу, нотация, нотный сборник*

**Fazila NABIYEVA**
Senior Researcher of the laboratory
“Improvement of national musical instruments” of AMC
Ph.D

## ETHNOMUSICOLOGICAL SIGNIFICANCE OF MUSICAL EDITIONS OF THE DANCE " YALLI”

***Summary:*** *The article is devoted to the species diversity of the ancient Azerbaijani dance “Yalli", which have an ancient history, included in the list of intangible heritage of UNESCO. It is noted that the round dance "Yalli", symbolizing the worship of the sun, is associated with the early form of people's worldview. Opinions about the etymology of the dance "Yalli" are confirmed by quotations contained in the sources. Information is given about the first musical editions of dances collected and notated by individual researchers in different years. The presented tables show the names, number of parts, mode basis, musical meter, tempo and the scale of the dance "Yalli".*

***Keywords:*** *"Yalli", circular rituals, sun worship, notation, music compilation*

**Rəyçilər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Lalə Hüseynova;
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Fəttah Xalıqzadə